# Dövlət qayğısı peşə təhsilinə stimul verir

**Seymur XUDANOV,**

*Naxçıvan MR Təhsil Nazirliyinin Orta ixtisas təhsili və peşə məktəbləri ilə iş üzrə şöbə müdiri*



Qloballaşmanın vüsət aldığı informasiya cəmiyyətində şəxsiyyətin yetişməsində genetika və mühitlə yanaşı, təhsilin də rolu çox böyükdür. Təhsil təkcə ölkədaxili ziyalı mühitin formalaşmasına xidmət etmir, eyni zamanda beynəlxalq aləmdə ölkənin rolunu müəyyən edən əsas amillərdən biridir. Çünki təhsilin əsas vəzifəsi uşaqları, gəncləri hazırlayıb, gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis kimi yetişdirməkdir. Bu mənada bəşəriyyət tarix boyu təhsilə özünün mənəvi təkamül gücü kimi baxmışdır.

Azərbaycanda da hələ ötən əsrin 70-ci illərindən etibarən təhsilin inkişafı ön plana çəkilmiş, ümummilli liderimizin uzaqgörən siyasəti nəticəsində təhsilin bütün pillələri üzrə mühüm dəyişikliklər həyata keçirilmişdir. Dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda təhsil özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş, dünya təhsil sisteminə inteqrasiya olunmuşdur.

Azərbaycanda təhsil sahəsində qazanılan uğurlar və əldə olunan nailiyyətlər içərisində Naxçıvan təhsilinin özünəməxsus rolu və payı vardır. Muxtar respublikada təhsilə göstərilən yüksək diqqət və qayğı sayəsində təhsilin bütün pillələri özünün ən yüksək inkişaf mərhələsinə çatmışdır.

Naxçıvan Muxtar Respublikasında təhsilin bütün pillələri kimi peşə təhsilinin inkişaf strategiyası hələ müstəqil dövlət quruculuğunun ilk illərində ümummilli lider Heydər Əliyevin birbaşa tapşırığı ilə hazırlanmışdır və həmin kurs indi də müvəffəqiyyətlə davam etdirilir. Günü-gündən yeniləşən Naxçıvan özünün hazırkı sürətli inkişaf dövründə ötən hər ili sosial-iqtisadi həyatda əldə olunan mühüm nailiyyətlərlə başa vurur. Bu illərdə uğurla həyata keçirilən dövlət proqramları əsasında muxtar respublikanın sosial-iqtisadi strategiyasına uyğun olaraq bir sıra mühüm tədbirlər reallaşdırılmışdır.

Ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ixtisaslı kadrlara yaranan tələbatın ödənilməsi, habelə əhalinin müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli texniki peşə təhsili sisteminin formalaşdırılması mühüm əhəmiyyət daşıyır.

Dövlət proqramlarının tələblərinin yerinə yetirilməsi və bu gün muxtar respublikamızın həyatında baş verən sosial-iqtisadi dəyişikliklər, yeni sənaye və xidmət sahələrinin yaradılması, müasir informasiya texnologiyalarının tətbiqi peşə təhsilinin inkişafı və bu yolla ixtisaslı işçi kadrlarının yetişdirilməsini də zəruri etmişdir. Bu mənada peşə təhsili sisteminin genişdirilməsi və bu sahəyə qayğının daha da artırılması muxtar respublika rəhbərinin daim diqqətində olmuşdur. Bunların davamı olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 25 avqust 2016-cı il tarixli 83 nömrəli qərarı ilə peşə ixtisas təhsili üzrə ixtisasların siyahısı və tədris planlarında dəyişikliklər olmuşdur. Həmin dəyişikliklərə əsasən bazar iqtisadiyyatının tələblərinə cavab verən 47 peşə ixtisası və 5 ixtisasartırma kurslarının siyahısı və tədris planları təsdiq olunmuşdur ki, həmin kursların müddəti də 1, 2 və 3 aylıq olaraq qərarda öz əksini tapmışdır. 2009-cu ildə Naxçıvan şəhərində peşə liseyi istifadəyə verilmişdir.

Qeyd edilməlidir ki, Naxçıvan şəhər peşə liseyi artıq yeddi ildir ki, müxtəlif peşə istiqamətləri üzrə məzun buraxılışını həyata keçirir. Liseydə şagirdlərin peşə hazırlığını təmin etmək üçün lazımi şərait yaradılmışdır. Həmçinin şagirdlər yataqxana və gündəlik isti yeməklə təmin olunurlar. Peşə liseyi və peşə məktəblərində yaradılan bu şərait bazar iqtisadiyyatına uyğun yeni ixtisaslar açılmasına stimul yaradır və muxtar respublikamızda ixtisaslı işçi kadrlarının yetişdirilməsində mühüm rol oynayır. Sürətlə inkişaf edən qabaqcıl texnologiyalardan istifadə edə bilən, savadlı, səriştəli kadrlara, həmçinin bazar iqtisadiyyatı ilə əlaqədar sahibkarlıq, menecment, ofisiant, turizm bələdçisi, kompüter operatoru, xalçaçı, rabitə və elektrik montyoru, bağban, aşbaz köməkçisi, istilik sistemlərinin montajçısı, mobil telefonların təmiri ustası, dayə, bənna, sürücülük və sair ixtisaslara olan ehtiyacları ödəyə biləcək texniki peşə təhsili şəbəkəsinin genişləndirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Görülmüş işlərin nəticəsidir ki, hazırda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində 3 peşə məktəbi və 1 peşə liseyi fəaliyyət göstərir.

2016-2017-ci tədris ili üçün həmin peşə təhsili müəssisələrində 645 nəfər şagird qəbulu həyata keçirilmişdir. Peşə təhsili müəssisələrində 2015-2016-cı tədris ilində 13 ixtisas üzrə illik qruplarda 261 nəfər təhsilini başa vurmuş və diplomlarını ilk dəfə olaraq 26 iyul 2016-cı il tarixdə eyni gündə almışlar. Ümumilikdə 2016-cı ilin I yarımili ərzində muxtar respublikamızda fəaliyyət göstərən ilk peşə-ixtisas təhsili müəssisələrini müxtəlif ixtisaslar üzrə 1246 şagird bitirmişdir. 2016-2017-ci tədris ilində şagirdlərin təlim - tərbiyəsi ilə 49 nəfər müəllim və istehsalat təlimi ustası məşğul olmuşdur. Məlumat üçün qeyd etmək istərdik ki, ötən tədris ilində muxtar respublikanın ilk peşə-ixtisas təhsili müəssisələrini bitirmiş şagirdlərin əksəriyyəti istehsalatın müxtəlif sahələrində ixtisaslı kadr kimi əmək fəaliyyətinə başlamışdır.

İqtisadiyyatın inkişafı ilə əlaqədar ən müasir elektron texnologiyalarla təchiz olunmuş maşın və mexanizmlərin muxtar respublikamıza gətirilməsi və müxtəlif sahələrdə istifadə edilməsi, onların təhsilli və ixtisaslı kadrlar tərəfindən idarə olunmasını tələb edir. Bu məqsədlə Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Bu da məktəbdə tədrisin keyfiyyətinin yüksəldilməsinə, təlimlərin səmərəli təşkili və müdavimlərin yüksək səviyyədə hazırlanmasına geniş imkanlar açmışdır. Məktəbdə yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrinin idarəetmə məsələləri üzrə təcrübi təlimlər keçirilir. Bunun üçün 2 avtotrenajordan istifadə olunur. Təlim kursu başa çatdıqdan sonra müdavimlər bilik, bacarıq və vərdişlərinin, eləcə də sürücülük hazırlıqlarının səviyyəsini müəyyən etmək üçün test, avtotrenajor və yürüş təlimindən imtahan verirlər.

Digər tərəfdən, xalqımıza məxsus milli sərvətlərimizdən olan xalçaçı sənətinin qorunub saxlanılması və müasir dövrdə gənclərimizə aşılanması üçün bu sahə üzrə mütəxəssislərin hazırlanmasının vacibliyi, bununla yanaşı ən müasir rabitə, informasiya texnologiyaları və xidmət sahələrinə artan tələbat yeni - yeni ilk peşə ixtisaslarının yaradılmasını tələb edir. Bu tələbatın zəruriliyini nəzərə alan Ali Məclis Sədrinin tapşırıq və tövsiyələri ilə Şərur və Ordubad Texniki Peşə Sürücülük Məktəbi isitfadəyə verilmişdir. Şərur şəhərində fəaliyyət göstərən, dünya standartlarına cavab verən, yüksək maddi-texniki baza ilə təchiz olunan və gələcəkdə muxtar respublikanın müxtəlif sahələrini əhatə edə biləcək ixtisaslı kadrların hazırlanması üçün inşa olunmuş 360 şagird yerlik məktəbdə 11 elektron lövhəli sinif, 21 kompüter olan 1 sinif, 4 ən müasir emalatxana, 83 yerlik yataqxana, yeməkxana, yürüş təlimi üçün məşq meydançası, mini-futbol meydançası və idman zalı fəaliyyət göstərir.

5 may 2016-cı il tarixdə ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93 - cü ildönümü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun açılışında iştirak etdiyi yeni, müasir standartlara tam cavab verən əzəmətli bir bina da fəaliyyətə başladı. "Peşəsi olmayan gənc gələcəkdə heç nəyə müvəffəq ola bilməz", - deyən Ali Məclisin Sədri bildirmişdir ki, hər bir gənc gələcək həyatını qurmaq üçün, ilk növbədə, peşə sahibi olmalıdır. İstər peşə təhsili, istərsə də orta ixtisas və ali təhsil almasından asılı olmayaraq seçdiyi ixtisası dərindən mənimsəməlidir. Ordubad şəhərində fəaliyyət göstərən, dünya standartlarına cavab verən, yüksək maddi - texniki baza ilə təchiz olunan və gələcəkdə muxtar respublikanın müxtəlif sahələrini əhatə edə biləcək ixtisaslı kadrların hazırlanması üçün yeni inşa olunmuş 4 mərtəbədən ibarət 522 yerlik məktəb binasında 12-si elektron lövhəli (hamısı internetə qoşulmuş halda) olmaqla, 28 sinif otağı, 4 emalatxana, şahmat otağı, tibb otağı, kompüter otağı, müəllimlər otağı, idman zalı, 2 soyunub-geyinmə otağı, arxiv, 1 təsərrüfat otağı və 2 bərbərxana vardır.

Müdavimlərin təlim keçməsi üçün 2 avtotrenajor mövcuddur. Məktəbin kompüter otağında olan 19 kompüterin hamısı internetə qoşulmuşdur. Bundan başqa, mühasib və direktorun qəbul otağının hər birində bir dəst kompüter quraşdırılmışdır.

Məktəbdə qadın bərbəri, bərbər, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, xalçaçı, traktorçu-maşinist, qazanxana maşinisti, aşpaz köməkçisi, ofisiant, avtomobil sürücüsü qadın, avtomobil sürücüsü kişi, elektrik və rabitə montyoru olmaqla 11 peşə ixtisası öyrədilir. Həmin ixtisaslar üzrə ümumilikdə 146 müdavim məktəbə qəbul olunmuş və kurs müddəti bitdikdən sonra məktəbin ilk məzunları olmuşlar.

Yaradılmış bu şərait şagirdlərin peşəyə marağının artırılmasına, peşə təlimi istiqamətinin daha da inkişaf etdirilməsinə stimul yaradır.

Peşə təhsili müəssisələrində şagirdlərin istehsalat təcrübəsinin keçirilməsi daim diqqətdə saxlanılan məsələlərdəndir və bu proses üçün təhsil müəssisələrində lazımi şərait yaradılmışdır. İstehsalat təcrübəsi istehsalat təliminin yekun mərhələsi olub əsas vəzifəsi öyrənilən ixtisas üzrə şagirdlərin bilik, bacarıq və vərdişlərini möhkəmləndirməkdən, təkmilləşdirməkdən və onlarda əməyə dərin məhəbbət hissi aşılamaqdan ibarətdir.

Muxtar respublikada fəaliyyət göstərən peşə təhsili müəssisələrində oxuyan şagirdlərin nəzəri biliklərinin praktiki bacarıqları ilə əlaqəli şəkildə inkişaf etdirilməsi məqsədilə hər bir ixtisasa uyğun gələn istehsalat sahəsi ilə təhsil müəssisələri arasında müqavilələr bağlanılır. Həmin müqavilələrə uyğun olaraq şagirdlər istehsalat təlimi ustalarının nəzarəti altında ixtisaslarına uyğun istehsalat təcrübəsi keçir. İstehsalat təcrübəsinin sonunda hər bir şagird üçün istehsalat xasiyyətnaməsi verilir ki, bu da onların imtahanlarda iştirakına zəmanət verir. Həyata keçirilən bu proses isə əmək bazarı ilə əlaqənin daha da sıx qurulmasına və azad iqtisadi münasibətlər şəraitində müxtəlif sahələrdə ixtisaslı işçi qüvvəsinə yaranan tələbatın çevik şəkildə ödənilməsinə şərait yaradır.

Bütün bu sadalananlar muxtar respublika rəhbərinin həyata keçirdiyi uğurlu təhsil siyasətinin, təhsilimizə göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.

Göstərilən bu etimad məsuliyyətimizi bir daha artırır və biz işlərimizi günün tələbləri səviyyəsində qurmağa çalışırıq.